# Təəssübkeş

**Vətənin, ana dilimizin, mətbuatımızın, sözün, sənətin təəssübkeşi olan soydaşlarımızın bəlkə də sayı bilinmir. Çünki qədim tarixə malik olan ulu xalqın gənc müstəqil dövlətinin belə sədaqətli vətəndaşları olduqca çoxdur. Elə bu istiqamətlərdən hansının təəssübkeşinin daha çox olduğu da bilinmir. Çünki bu sətirlərin qəhrəmanı kimi minlərlə insan var ki, həm Vətənin, həm dilimizin, həm mətbuatın, həm sözün, həm doğulub-böyüdüyü məkanın, ... həm də çalışdığı kollektivin təəssübkeşidir. Məhz ona görə də bir adam 10-15 sevgiyə, rəğbətə, bağlılığa imza atmış kimi olur.**



Söhbət "Xalq qəzeti"nin məsul katibi, Əməkdar jurnalist, tanınmış söz adamı, bir neçə kitabın müəllifi olan İlqar Gülağa oğlu Rüstəmovdan gedir. O, 1962-ci ilin payızında, Lerik rayonunun Çayrud kəndində anadan olmuş, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirmiş, "İdman" qəzetində, Dövlət radiosunda, "Vətən ocağı" qəzetlərində çalışmış, 1991-ci ildən isə taleyini "Xalq qəzeti" redaksiyasına bağlamışdır.

Tanınmış söz adamı olan Yasin Qaraməmmədli deyirdi ki, jurnalistikanın ən çətin sahəsi qəzetçilikdir. Ona görə də hansısa qəzetdə çalışandan sonra radioda, televiziyada işləmək olduqca asandır. Radioda işləyib qəzetə gedənlər isə xeyli çətinliklə üzləşirlər. Bu baxımdan İlqarın işi yaxşı getmişdir.

Bir dəfə həmkarımız İlham Abbasov dedi ki, İlqar Rüstəmov bitkin adamdır. Soruşdum ki, yetkin, yoxsa bitkin? Dedi, yetkinlik boya-başa çatmaq mənası verir və hər yetkin adam bitkin ola bilmir. İlham Abbasovun həmin qənaətinin təsdiqini İlqar Rüstəmovun 1998-ci ildə çap olunmuş "Çevrilişdən çevrilişə" kitabını oxuyanda görmüşdüm.

... Redaksiyamızın tərcüməçisi, mərhum həmkarımız Ayaz Abbasov dünya futbolunun ən yaxşı bilicilərindən idi. Onun futbol haqqındakı söhbətlərini eşidəndə hamı mat qalırdı. Heç birimiz Ayazın yanında futboldan danışmırdıq. Bir dəfə isə İlqarın Braziliya və Argentina futbol məktəbləri haqqında Ayazla mübahisəsinin şahidi oldum. Təxminən iyirmi dəqiqəlik mübahisədən sonra Ayaz bəzi məqamları etiraf eləməli oldu. Elə uzun illər "Kino" qəzetinin baş redaktoru işləmiş Mehdi Mükərrəmoğlu da bir dəfə İtaliya kinorejissorlarından hansınınsa filmləri ilə bağlı söhbətdə : "İlqar, sən düz deyirsən" ifadəsini işlətmişdi. Onun əsas peşəsi qəzetçilik olduğuna görə mətbuatın ərsəyə gəlməsi ilə bağlı da çox məqamlardan xəbərdardır. Üstəlik, redaksiyanın təəssübünün çəkilməsində də özünəməxsus dəstxətti var.

O, ulu öndər Heydər Əliyevin Azərbaycan Prezidenti seçiləndən sonra ilk xarici təmaslarını reallaşdırmaq üçün getdiyi Fransa səfərində iştirak edən jurnalistlərimizdən biri olanda həm Vətən sevgisini, həm haqqa, ədalətə olan sədaqətini, həm mətbuata bağlılığını, həm də "Xalq qəzeti"nə olan təəssübkeşliyini nümayiş etdirmişdi.

... Yadımdadır, 2001-ci ildə İraq səfərindən sonra hazırladığım "İraq o qədər də iraq deyilmiş..." adlı qəzet materialında belə cümlələr var idi: "Şair İsgəndər Etibarla birlikdə Babilin asma bağlar olan ərazisində, uzun əsrlər tarixin küləklərinə tab gətirmiş divarların üstündə turistlər üçün ayrılmış meydandan uzaqlara baxdıq. "Bəlkə bu yerlərə bir də gəlmədim", deyə "Xalq qəzeti"nin foto-aparatımı şaqqıldatdım. Bu fotolar alındı". İlqar Rüstəmov həmin sətirləri oxuyandan sonra dedi: "Ziyarətin qəbul olsun! Təəssüratların zəngindir. Xüsusilə qeyd edilməli məqam isə bütün səfərlərdə fotonu özünün çəkməyindir. Həqiqi jurnalist həm də yaxşı fotoqraf olmalıdır".

İlqar bunu təkcə mənə demir. Həmkarlarımızın hamısının bu addımı atmasını arzulayır və özü də yazı hazırlayanda fotolara müəlliflik edir. Yeri gəlmişkən, bu baxımdan onun adaşı İlqar Həsənovun da çəkdiyi hər foto bir yazı mövzusuna çevrilir.

... 2007-ci ilin may ayında Nijni Novqorod şəhərində yaşayan soydaşlarımız Bakıdan deputatları, şair və yazıçıları, musiqiçi və jurnalistləri öz şəhərlərinə dəvət etmişdilər. O vaxt Bakının hər küçəsində beş-on yerdə valyutadəyişmə məntəqəsi olsa da, həmin şəhərdə cəmi üç yerdə dolları rus puluna dəyişmək olurdu. "Lokomotiv" stadionunun ətrafındakı milislərin rəhbəri olan bir azərbaycanlı mayor öz maşını ilə biz beş jurnalisti hansısa banka apardı ki, dolları dəyişək. Mənim "Xalq qəzet"ində işlədiyimi biləndə "Orada bizim həmyerlilərimiz də çalışır", – dedi və İlqar Rüstəmovun atası, mərhum Gülağa müəllim haqqında xeyli müsbət fikirlər səsləndirdikdən sonra sözlərini belə yekunlaşdırdı: "Gülağa müəllim dərs dediyi və demədiyi bütün leriklilərin müəllimi idi".

Mən orada, Kama çayının Volqaya qarışdığı məkanda, "Volqa" avtomobillərinin istehsal edildiyi şəhərdə, "Volqa" maşınında oturub yol gedəndə belə bir qənaətə gəldim ki, İlqarın müsbət keyfiyyətlərinin heç biri onun "öz hünəri deyil". Onu gen və böyüdüyü mühit bitkin edib.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**